**İkinci Qarabağ müharibəsində Azərbaycanın tarixi qələbəsi Cənubi Qafqaz regionunun geosiyasi və geoiqtisadi mənzərəsini kökündən dəyişdirdi. Eyni zamanda, burada yeni əməkdaşlıq üçün əlverişli zəmin yaratdı. Xüsusilə, Azərbaycanın müharibədə qalib gələn tərəf kimi əməkdaşlıq, sülh üçün konkret təşəbbüslər və təkliflər irəli sürməsi, regional inkişafın təmin edilməsi üçün əməli addımlar atmağa hazır olduğunu bəyan etməsi beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır. Əsasən də tranzit-nəqliyyat potensialının inkişafına dair rəsmi Bakının təkliflərini bütün ölkələr yüksək qiymətləndirir, qitələrarası yükdaşımalara xidmət edəcək dəhlizlərin fəaliyyətə başlamasını alqışlayırlar.**

# Zəngəzur dəhlizinin açılması ilə Ermənistan da tərəqqi yoluna qədəm qoya bilər



Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) Səmərqənddə keçirilən növbəti sammitindəki çıxışında Prezident İlham Əliyev görüş iştirakçılarına Azərbaycanın tranzit-nəqliyyat potensialı barədə məlumat verdi. Dövlət başçımız çıxışında bildirdi ki, 2020-ci ilin sonunda Qarabağ münaqişəsinin həlli regionda nəqliyyat-kommunikasiya layihələrinin inkişafı üçün yeni imkanlar yaratmışdır. Azərbaycan Prezidenti çıxışında Zəngəzur dəhlizinə toxundu və dəhlizin fəaliyyətə başlanmasının hamı üçün faydalar gətirəcəyini vurğuladı: “2020-ci ilin sonunda Qarabağ münaqişəsinin həlli regionumuzda nəqliyyat-kommunikasiya layihələrinin inkişafı üçün yeni imkanlar yaradıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bu, region ölkələrinin nəqliyyat imkanlarını daha da artıracaq və marşrut boyu yerləşən bütün ölkələr üçün faydalı olacaqdır”.

Xüsusilə qeyd etmək lazımdır ki, dövlət başçımız qlobal böhran, qlobal inflyasiya və təchizat zəncirlərinin pozulması kontekstində nəqliyyat əlaqələri məsələsinin son dərəcə aktuallıq kəsb etdiyi dövrdə Zəngəzur dəhlizinin fəaliyyətə başlamasının zəruriliyini diqqətə çatdırır. Təbii ki, bu gün xarici tədarükləri şaxələndirməyə çalışan, yeni bazarlar axtaran, eləcə də Şimal və Cənub, Qərb və Şərq istiqamətlərində malların tranziti üçün infrastruktur imkanlarını təklif edən Azərbaycan üçün də bu məsələ vacibdir.

Zəngəzur dəhlizinin açılması iqtisadiyyatı Qərb sanksiyalarının təzyiqi altında olan Rusiyanın özü üçün xüsusi əhəmiyyət kəsb edir. Belə şəraitdə şimal qonşumuz alternativ tranzit-nəqliyyat dəhlizlərdən yararlanmağı düşünür. Xatırladaq ki, Rusiya Prezidenti Vladimir Putin ötən ay keçirilən Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda demişdi ki, Rusiya logistik problemləri həll etmək və şirkətlərə kömək etmək üçün nəqliyyat dəhlizlərinin inkişafını formalaşdırır. Bununla yanaşı, Rusiya lideri qeyd etmişdi ki, o, yaxın gələcəkdə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə yükdaşımaların həcminin artmasına ümid edir. Rusiya liderinin fikrincə, bu, Yaxın Şərq və Cənubi Asiya ilə sabit rabitə kanallarını təmin edəcək. Bu şəraitdə Zəngəzur dəhlizi məsələsi aktuallaşır. Belə ki, bu, rəsmi Bakıya təkcə Zəngəzur dəhlizi üzrə malları Naxçıvanla həmsərhəd olan Türkiyəyə çatdırmağa imkan verməyəcək, həm də malları Aralıq dənizi limanlarına gətirmək istəyən başqa ölkələrə də yeni imkanlar yaradacaq. Bunlara Orta Asiya ölkələri və Rusiya da daxildir.

Dəhliz, həmçinin Türkiyə və digər dövlətlərin mallarının Xəzər dənizi vasitəsilə Qafqaza, Rusiyaya və Asiya ölkələrinə vaxtında və təhlükəsiz şəraitdə çatdırılmasına imkan verəcək. Eyni zamanda, Zəngəzur dəhlizi, həm də tarixi İpək Yolunun canlandırılması, Çinin “Bir kəmər–bir yol” layihəsi, regional əməkdaşlıq və ticarətin inkişafı baxımından həyati əhəmiyyət kəsb edir. Xüsusilə qeyd etmək lazımdır ki, bu məsələdə Rusiyanın, Türkiyənin və Azərbaycanın da maraqları kəsişir. Dəhliz vasitəsilə Rusiya Ermənistan, İran və Türkiyə ilə əlaqələrini daha da gücləndirə bilər. Dəhlizin açılması ilə Ermənistan Azərbaycan vasitəsilə də Rusiya ilə ticarət edə bilər. Yəni Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmaqla Ermənistan təcriddən çıxa və regionda rifah prosesinin bir hissəsinə çevrilə bilər.

Xatırladaq ki, İkinci Qarabağ müharibəsinin nəticələrindən sonra Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri səviyyəsində Zəngəzur dəhlizinin açılmasını ayrıca bənd kimi nəzərdə tutan üçtərəfli Bəyanat imzalanmışdır. Bəyanatda Zəngəzur dəhlizinin açılması Ermənistanın öhdəliklərindən biri kimi təsbit edilmişdir. Sözdə Ermənistan bunu qəbul edir, amma əməldə prosesi gecikdirir. Azərbaycan müharibədə qalib tərəf kimi əməkdaşlıq, sülh üçün konkret təşəbbüs və təkliflər irəli sürmüş, Ermənistanla ölkəmiz arasında düşmənçilik səhifəsini döndərmək, regional əməkdaşlıq və əməkdaşlığı inkişaf etdirmək üçün əməli addımlar atmağa hazır olduğunu bəyan etmişdir.

Bu formatda əməkdaşlıq regionda sabitlik və tərəqqi üçün fundamental əhəmiyyət kəsb edir və bu, Cənubi Qafqazda ən çox Ermənistana lazımdır. Çünki indiyədək Ermənistanla əməkdaşlıq etməsə də, Azərbaycan inkişaf göstəricilərinə görə regionun lider ölkəsidir və əldə etdiyi nailiyyətlərlə bu statusu daha da möhkəmləndirmiş, çoxsaylı transmilli layihələr həyata keçirmişdir. Buna görə də, əminliklə demək olar ki, Azərbaycan və Türkiyə ilə əməkdaşlıq etmədən Ermənistan sabit və davamlı inkişaf edə bilməyəcək. Bu mənada Azərbaycanın müharibədən sonrakı dövrdə sülh və münasibətlərin inkişafı ilə bağlı təklifləri də Ermənistanın xilas yolu kimi qiymətləndirilə bilər.

Əlbəttə, bütün bunlar Ermənistan cəmiyyətinə və mandat verdiyi hakimiyyət orqanlarına yaxşı məlumdur. Buna baxmayaraq, bu ölkə regional inteqrasiya reallıqlarını qəbul etmək, yeni iqtisadi əlaqələr qurmaq, nəqliyyat dəhlizləri açmaq əvəzinə hələ də köhnə vərdişinə sadiq qalır və “inkar sindromu”na riayət etməyə üstünlük verir. Bunu, yuxarıda qeyd etdiyimiz kimi, Zəngəzur dəhlizi kontekstində də görmək olar. Zəngəzur dəhlizinin yaradılması Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatında öz əksini tapmışdır.

Bundan əlavə, 2021-ci il yanvarın 11-də imzalanmış üçtərəfli Bəyanatda da Zəngəzur dəhlizinin açılması və istismara verilməsi də nəzərdə tutulmuşdur. Ancaq Ermənistanın baş naziri Nikol Paşinyan Zəngəzur dəhlizi ilə bağlı absurd bəyanatlar verməklə məşğuldur. Hətta, Azərbaycanın sülh gündəliyini pozmaq niyyətini güdən rəsmi İrəvan sentyabrın 12-dən 13-ə keçən gecə Azərbaycanla sərhəddə hərbi təxribata əl ataraq, özünü “təcavüzün” qurbanı kimi qələmə verməyə çalışdı.

Ancaq Ermənistan nəzərə almalıdır ki, Azərbaycan süveren ərazisində hər hansı bir təxrübata yol verməyəcək və bütün dünya rəsmi Bakının sözünün üstündə dayandığını bir daha müşahidə etdi. Bundan başqa, ermənilər anlamalıdırlar ki, 10 noyabr Bəyanatına uyğun olaraq, Azərbaycan Laçın dəhlizi vasitəsilə Ermənistanla Qarabağ ermənilər arasında maneəsiz əlaqənin təmin edilməsinə şərait yaratmışdır. İndi Ermənistan Zəngəzur dəhlizi ilə bağlı üzərinə götürdüyü öhdəlikləri müəyyən olunmuş qaydada yerinə yetirməsə, Azərbaycan Laçın dəhlizini bağlamaq məcburiyyətində qalacaq. Azərbaycan dəhlizlərlə bağlı belə balanssızlığa dözmək niyyətində deyil.

Ən əsası, rəsmi İrəvan bilməlidir ki, Zəngəzur dəhlizinin tezliklə açılması həm də regionda sülhün etibarlılığı üçün fundamental amillərdən biri sayılır. Prezident İlham Əliyev ŞƏT-dəki çıxışında bununla bağlı bildirdi ki, Azərbaycan Ermənistana ölkələrin bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanan sülh müqaviləsi üçün beş əsas prinsip təqdim etmişdir: “İndi biz ilkin şərtlər və süni ləngimələr olmadan sülh sazişi layihəsi üzərində işə başlamalıyıq”.

Prezident İlham Əliyev çıxışında təəssüflə xatırlatdı ki, sentyabrın 13-də Ermənistan Azərbaycanla dövlət sərhədində genişmiqyaslı hərbi təxribat törətmişdir. Dövlət başçımız Azərbaycan Silahlı Qüvvələrinin bu təxribatın qarşısını qətiyyətlə aldığını da iştirakçıların nəzərə çatdırdı. Prezident İlham Əliyev birmənalı şəkildə bildirdi ki, Ermənistanın bu təxribatı iki ölkə arasında normallaşdırma prosesinə böyük bir zərbədir və 13 sentyabr təxribatının bütün məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Beləliklə, dövlət başçımız ən yüksək səviyyədə Ermənistanın destruktiv addımları barədə bir daha məlumat verdi, Zəngəzur dəhlizinin açılmasının ləngidilməsinin, eləcə də Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması prosesinin yubanmasının arxasında rəsmi İrəvanın dayanması barədə xəbərdarlıq etdi. Azərbaycanın yanaşması ondan ibarətdir ki, Zəngəzur dəhlizinin açılması ilə bağlı öhdəliklərin yerinə yetirilməsi regionda sülh və əmin-amanlığın bərqərar olması üçün əsasdır və rəsmi Bakı bu istiqamətdə israrla fəaliyyət göstərəcək.

Zəngəzur dəhlizinin açılması güc mərkəzlərinin də tələbidir. Çünki bu yeni kommunikasiya təkcə Cənubi Qafqazda deyil, bütün Avrasiya ölkələri üçün əhəmiyyət kəsb edir. Buna görə də, Ermənistanın Zəngəzur dəhlizinə müqavimət göstərmək cəhdlərinin heç bir perspektivi yoxdur və Azərbaycanın sonda məqsədinə çatacağı hamıya məlumdur.

Eyni zamanda, bölgədə sülhün əsas sütunlarından biri olan Zəngəzur dəhlizi, həm də region dövlətləri arasında iqtisadi-ticarət əlaqələrinin inkişafında, eləcə də Ermənistanın özünün demək olar ki, davam edən 30 illik təcrid vəziyyətindən çıxarılmasında mühüm rol oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya və infrastruktur layihələri təkcə bütün türk dünyasını birləşdirməyəcək, həm də Ermənistan üçün əlavə imkanlar yaradacaq. Bu, ağır sosial-iqtisadi vəziyyətdə olan Ermənistan üçün son dərəcə vacibdir. Odur ki, Ermənistan maneələr yaratmaq əvəzinə, Zəngəzur dəhlizinin tezliklə istifadəyə verilməsində daha çox maraqlı tərəf olmalıdır.

Ermənistan nəzərə almalıdır ki, Azərbaycan dəfələrlə düşmənçiliyə son qoymağa hazır olduğunu bəyan etmiş və bütün qonşu dövlətlərin iştirakı ilə regionda inkişafın və əməkdaşlığın təmin olunduğu reallığı qəbul etməyə çağırır. Bu kontekstdə Azərbaycan regionda bütün iqtisadi və nəqliyyat kommunikasiyalarının açılması üçün əməli addımlar atır. Bunu Ermənistanda da düzgün qiymətləndirmək, əməkdaşlıq üçün adekvat addımlar atmaq lazımdır. Əks halda, Ermənistan ən çox uduzan tərəfə çevriləcək.

***Səbuhi MƏMMƏDOV,***
***“Xalq qəzeti”***